# 4. "ZAMANIN RƏNGLƏRİ"NDƏ SON AKKORDLAR

> ***Qulu Məhərrəmli zəngin mənəviyyatı, səmimiyyəti, sağlam yumoru, dürüst əxlaqı ilə mənim üçün çox cazibədar şəxsiyyətdir. O, daxili azadlığından doğan müstəqil düşüncəsi, istedadı və peşəkarlığı ilə jurnalistlərimizə, yüksək erudisiyası, gərəkli araşdırmaları ilə alimlərimizə, milli kökə bağlılığı və vətəndaş mövqeyi ilə gənclərimizə əsil nümunədir.***
>
> **Gülrux ƏLİBƏYLİ, professor**

### *a. Neft: Şərqin xoşbəxtliyi, yoxsa bədbəxtliyi?*

Professor Qulu Məhərrəmlinin yaradıcılıq yolunu izlədikcə onun düşüncələrinin çox aydın bir məram üzərində kökləndiyini müşahidə etmək heç də çətin deyil. Yəni onun üçün əsas mənəvi meyar milli mənafedir. Doğrudur, ziddiyyətlərin toqquşma məqamında o, çox ustalıqla tərəfləri müqayisəyə çəkir və milli maraqların üstünlüklərini kifayət qədər göstərə bilir. Yəni o, ümumdünya müstəvisində düşüncədə problem yaradacaq məsələləri şərh edəndə də obyektivlik hissini itirmir. Ancaq yerli şəraiti, milli maraqları müdafiə etməsinin səbəblərini əsaslandıra bilir. Məlumdur ki, son vaxtlar neft amili dünya siyasətində xüsusi olaraq ön mövqeyə çıxıb. Hələ 22 il öncə Qulu Məhərrəmli *"Yaxın Şərq: neft qoxusu və barıt çəlləyi"* ("Bakı", 14 oktyabr, 1999) adlı yazısında – elə yazısının sərlövhəsindəcə neft qoxusu amili ilə barıt çəlləyi qorxusunu bir müstəviyə gətirir. Və bizə də burada imkan verir ki, bir qədər sonrakı zamanlara da gediş edək. İraq, Küveyt, Liviya hadisələri və əlbəttə, ABŞ müdaxilələri... bütün bunlar haradan, nə üçün və hansı səbəbdən baş verirdi və nəticələri necə oldu?.. Suala ehtiyac yoxdu. Çünki bu hadisələrin bir növ, hətta kənardan da olsa müşahidəçiləri olmuşuq və nəticələrinin də şahidləriyik. Demək, Qulu Məhərrəmli Yaxın Şərq amilini diqqətə çəkəndə gələcək münaqişələrin ərazi baxımından təyinatını kifayət qədər dəqiq verir. Şübhəsiz, onu da göstərir ki, buraya can atanlar dünya maliyyə nizamındakı dəyişikliyə səbəb olacaq əsas mənbələri kifayət qədər dəqiqliklə müşahidə edirlər. Onsuz da biz həmişə demişik ki, Qulu Məhərrəmli hadisələrin arxasınca sürünən şərhçi deyil. O kifayət qədər qabaqcadan hadisələrin gedişini proqnoz etmək gücündə olan siyasi şərh ustasıdır. Siyasət üzrə kifayət qədər ustad publisistdir. Demək, o, neft qoxusunun gəldiyi yerin həm də barıt çəlləyi ilə müqayisə oluna biləcək ehtiyatlıq məqamını da göstərir.

Qulu Məhərrəmli Yaxın Şərqdən danışmaq istəyir. Ancaq bu arenada barıt çəlləyini xatırladan məqsədləri neft qoxusuna doğru çəkən məqamlara, mənbələrə və niyyət sahiblərinə diqqəti yönəldir. Və elə buradaca Azərbaycanı da unutmur: *"Son illər dünyada nə baş verirsə-versin, siyasətdən başı çıxan da, heç onun nə olduğunu bilməyən də hər şeyi neftlə əlaqələndirir. Əslində, aşıq gördüyünü çağırar, yəni indi geosiyasi maraqlar təkcə strateji milli təhlükəsizliyi yox, həm də yanacaq məsələsini özündə ehtiva edir. Biz əvvəllər bu məsələlərə uzaqdan baxırdıq, amma indi özümüz neft olaylarının içərisindəyik. Artıq müstəqil Azərbaycan da öz təcrübəsində dünyanı silkələyən böyük siyasətin indi neft içərisində necə damcı-damcı əridiyinin şahidi olmaqdadır".* Hələ 22 il əvvəl qələmə aldığı bu yazısında neftin hər şeyə təsir etdiyini diqqətə çəkir. Sanki bizə də xatırladır ki, siz də öz həyatınıza diqqət edin. Görün nə vaxt heç bəlkə birbaşa neftə dəxli olmayan kənd təsərrüfatı məhsullarının qiyməti necə qalxır və yaxud necə düşür. Həqiqətən çox da uzaq olmayan keçmişimiz bizə göstərir ki, neftin qiyməti qalxan kimi, Gədəbəy kartofunun da qiyməti qalxır, neftin qiyməti Sabirabad qarpızının da qiymətinə təsir edir. Hələ bunlar azmış kimi yağın şorun... ətin qiyməti də dəyişikliyə məruz qalır. Kəndli isə unun (taxılın) qiymətinin qalxmasını faciə kimi qarşılayır. Bir sözlə, neft dünyanın iqtisadi həyatına necə təsir göstərirsə, Azərbaycanın da həyatına eləcə təsir göstərir. Çünki Azərbaycan kifayət qədər dünya iqtisadi həyatına inteqrasiya olunur. Bütün bunlar yalnız iqtisadi güc göstəricisi olaraq qalmır. Bütün bunlar mənəvi mühitə də təsirsiz ötüşmür.

Qulu Məhərrəmli öz üslubuna uyğun olaraq dünya siyasətinin tarixinə maraqlı gediş edir: *"Hələ II Dünya müharibəsinin qurtarhaqurtar vaxtında neftin ABŞ üçün nə dərəcədə yüksək əhəmiyyət daşıdığını sübut edən məşhur bir faktı çoxları bilir. O vaxtkı prezident Ruzvelt Yalta konfransından dərhal sonra birbaşa Səudiyyə Ərəbistanına uçmuş və hərbi gəmidə bu ölkənin kralı İbn Səidlə görüşmüşdü. Deyilənə görə Ruzvelt qollarını açaraq kralı bərk-bərk qucaqlamış və ona "Əzizim, sənin üçün nə edə bilərəm?" – demişdi. Təbii ki, ABŞ-ın prezidentini belə mehriban danışdıran Səudiyyə Ərəbaistanın nefti idi. Bu gün avtoritar rejim qurmuş bir çox ərəb krallarına, şeyx və əmirlərinə Vaşinqtonun "sevgisi" yenə də neftdən qaynaqlanır".* Tarixi xronikanı çoxları bilir, ancaq xronikadan bu cür *"inciləri"* seçib məqsədə müvafiq təqdim etmək hər bir publisistə, yazara, qələm sahibinə və elə profesional poitoloji şərh ustalarına xas olan keyfiyyət deyil. Və buradaca bizə özümüzün şahid olduğumuz və Qulu Məhərrəmlinin bu yazısından sonrakı zamana aid olan tarixi hadisələrin – Amerika-Küveyt, Amerika-İrak, İrak-Küveyt hadisələrinin sirri də kifayət qədər açılmış olur. Qulu Məhərrəmli həmin dövr üçün xarakterik olan bir məqamla sözünü tamamlayır: *"Bir neçə il əvvəl görkəmli rus yazıçısı, Nobel mükafatı laureatı A.Soljenitsın müsahibələrinin birində demişdi ki, "qara qızıl" müsəlman xalqlarının taleyini qaranlığa qərq edir. Bəli, müsəlman dünyasını dünyadan geridə qoyan, insanlara fəlakət gətirən, Yaxın Şərqi barıt çəlləyinə çevirən ABŞ-ın və digər böyük dövlətlərin neft ehtirası və bu neft üzərində qurulan siyasətdir".* Əlbəttə, professor Qulu Məhərrəmli bu qeydləri 22 il əvvəl yazıb, ancaq aktual olan, günün siyasətini özündə ehtiva edən məqamlar bu gün də davam edir. Neftin qiymətinin qalxması dünya siyasətində tərəflərin müvazinətinə necə təsir göstərirsə, daxili bazarda kartofun qiymətinin qalxması ilə Azərbaycan mühitində də kifayət qədər əks-səda doğura bilir. Xüsusi ilə Azərbaycanın daxili həyatında məmur özbaşınalığı qanuna uyğun qiymət dəyişməsi ilə birləşəndə əhalinin ümumi çaxnaşmasına səbəb olmasını da düzgün başa düşmək olar.

Qulu Məhərrəmli kimi müəlliflərin xidməti orasındadır ki, mənsub olduqları, təmsil etdikləri məmləkətin, ərazinin gələcəkdə qarşılacağı sosial və siyasi durumları qabaqcadan öz yazıları ilə mesaj edirlər.

### *b. "Çalxalanan Rusiyanın iddiaları və imkanları"*

Siyasi-politoloji düşüncənin görünən müstəvisində professor Qulu Məhərrəmlinin *"Zamanın rəngləri"* silsiləsində bu yazı sonuncudur. Özü də *"Çalxalanan Rusiyanın iddiaları və imkanları"* başlığı ilə kifayətlənməyib əlavə bir öz dəsti-xəttinə uyğun yarımbaşlıqda konkret və aydın bir sual da qoyub: *"Azərbaycan ləngərlənən ayının pəncəsindən necə qorunmalıdır?"* Belə tipli yazıların həm yaranma şəraiti, həm də vaxtı (*"Aydınlıq"*, 26 noyabr, 1999) diqqətdən qaçırılmamalıdır. Ümumiyyətlə, Qulu Məhərrəmlinin bu tipli yazılarını izləyəndə onun hadisələri gözdən qaçırmamağını, bu hadisələrə vaxtında və məqamında cavab verməyini onun operativliyi ilə, çevik düşüncə tərzi ilə bağlamaq olar. Ancaq yaradıcılıq baxımından onun bu qədər sürətli işləmək, hadisələrə vaxtında cavab vermək, el dili ilə desək, bu qədər sözü haradan və necə tapmaq məharətini təqdir etməmək mümkün deyil.

Bu yazıda Qulu Məhərrəmli Yeltsin dövrünün sonuna nəzər yetirir. Təkcə həmin dövrdə Rusiyanın iqtisadi-siyasi durumunu nəzərdən keçirmir, həm də Rusiyanın siyasət istiqamətini birbaşa öz üzərinə götürmüş Yeltsinin durumuna da diqqət göstərir. Bu da təsadüfi deyil.

Qulu Məhərrəmli kimi siyasi politoloqlar, dünya siyasi mühitini xarakterizə edən müəlliflər, şəxsiyyətin tarixdə rolunu kifayət qədər bilir və elə buna görə də şəxsiyyətin durumundan asılı olaraq onun mənsub olduğu ölkənin siyasi hərəkət xəttini də göstərməyə çalışırlar. Ona görə də biz müəllifin Rusiyanın siyasi-mənəvi mühitini şərh edərkən bu fonda Yeltsinin obrazını görməyimizi təbii hesab edirik. Professor çox ustalıqla Yeltsinin şəxsi keyfiyyətlərinə nüfuz edir. Onun hətta ən yaşlı çağında belə və dumanlı düşüncə altında olduğu şəraitdə belə Rusiya üçün ən ağıllı variantları diqqətdə saxlamağını bizə görmək imkanı yaradır. Rusiya Avropa üçün kifayət qədər əhəmiyyətli ölkədir və Avropasız Rusiya da vecsiz ölkədir. Ona görə də Qulu Məhərrəmlinin şərhindən belə başa düşmək olur ki, bu coğrafi zonaların siyasi zonalara bölünərək bir-birinə qarşı düşmən olacağı zaman heç də real deyil. Zənnimizcə, bu mövqe kifayət qədər uzun ömürlüdür. Hətta Qulu Məhərrəmlinin bu yazını yazdığı zamandan 22 il ötsə belə yenə də öz gücünü qorumaqdadır: *"Ümumiyyətlə, Rusiyaya zəif dövlət kimi baxmaq hələ tezdir. Çünki sıxışdırılmasına baxmayaraq, hələ Rusiyanın əlində böyük imkanlar vardır. Ən başlıcası, zəngin neft-qaz yataqlarına malik Rusiyadan Avrpaya böyük həcmdə neft və qaz ixrac edə biləcək tranzit boru kəmərləri uzanır. Bir çox Avropa dövlətləri həmin enerji mənbələrindən asılıdır. Yəni bir çox Avropa dövlətinin sənayesi, iqtisadiyyatı Rusiya ilə sıx bağlıdır. Almaniyanın 35 faiz, İtaliyanın isə 20 faiz qazı Rusiyadan gəlir. Bu qaz kəsilsə, Almaniya və İtaliyanın iqtisadiyyatının, necə deyərlər, ürəyi dayana bilər".* Və müəllif çox ustalıqla Xəzəryanı dövlətərin iqtisadi və geostrateji cəhətdən Rusiyadan asılılıqlarını da yada salır. Bununla sanki qeyd etmək istəyir ki, qoy hər kəs bilsin "Rusiya regionda böyük Şərq – Qərb qarşıdurması yaratmaq imkanlarına malikdir". Zənnimizcə, bu çox reallığa söykənən və təhlükəli proqnozdur.

Şərq və Qərb təfəkkürünün prinsipcə ziddiyyətləri olmasa da, müəyyən fərqləri ziddiyyət səviyyəsinə qaldırmaq istəyənlər az deyil. Amma ağıllılar - zəka sahibləri Şərq müdrikliyi ilə Qərb soyuqqanlılığını, Qərb dəqiqliyini birləşdirmək istəyində həmişə israrlıdırlar. Ona görə də, ümumiyyətlə. Rusiya və Azərbaycan, Rusiya və Avropa, Rusiya və ABŞ, eləcə də, dünya və Türkiyə münasibətlərində qarşılıqlı uyğunlaşma məqamları tapmaq heç də çətin deyil. Necə ki, İsrail və Yaxın Şərq problemində dil tapmaq üçün vasitələrin olduğu danılmazdır, ancaq böyük siyasi maraqlardan çıxmaq şərti ilə, yaxud bu gün Əfqanıstanda baş verən hadisələr... Amerika başın götürüb getdi, NATO kifayət qədər müdaxilə etmək gücündə deyil. Bəs onda günahsız insanların – o insanların ki, Talibandan qorxusu var – taleyi necə olsun? Bütün bunlar o deməkdir ki, dünyanı nə vaxtsa başına buraxmaq olmaz. Yəqin ki, ABŞ bu jestinə görə nə vaxtsa dünya birliyi qarşısında cavab verəcək. Necə ki, Azərbaycan adlı məmləkətdə seçkini kütlənin ixtiyarına buraxmaq olmaz, çünki kütlə (sosial ehtiyaclar içərisində boğulan kütlə) asanlıqla 1 kq ətə, 1 kq düyüyə, 1 kq şəkər və 1 kq yağa aldanmaq gücündədir.

Siyasi-politoloji şərhləri ilə Qulu Məhərrəmli həmişə onu diqqətə çatdırır ki, Azərbaycan və Xəzəryanı ərazi çox həssas bir nöqtədə yerləşir. Çünki *"dünyanın marağı indi Xəzəryanı məkandadır; neft də buradadır, qaz da, habelə tranzit yollar da. Belə bir həssas nöqtədə yerləşən Azərbaycan hər addımında çox ehtiyatlı olmalıdır".* Çox dəyərli xəbərdarlıqdır. Hətta aradan 22 il keçəndən sonra yenə dəyərli xəbərdarlıqdır. Həm Rusiyaya münasibətdə, həm də Qarabağla bağlı problemlərimizin müəyyən qədər mübahisəli qaldığı, bir az da dəqiqləşdirsək, qarşı tərəfin siyasi cığallıq müstəvisində olduğu mərhələdə çox ehtiyatlı olmalıyıq. Yəni Rusiyanı İsgəndər Vahabzadə, Hafiz Hacıyev... səviyyəsində söymək mərhələsi artıq 90-cı illərdə qalıb. İndi daha çox dünya ağıllı və məntiqi mühakiməni qəbul edir, nəinki söyüşü və təhqiri.

Qulu Məhərrəmlinin də uzaqgörənliyi məhz intellekt gücünə, siyasi-mənəvi zənginliyə əsaslanır.

***Əli Rza XƏLƏFLİ***
***23.08.2021***